# SARI SİM

Qəlbimin baharlı gül bağçasında
Bir dünyalıq heyrətimsən,
Bir ömürlük söhbətimsən,
Əsatirim, əfsanəm,
Nağılım, rəvayətimsən.
Yaşamağa, yaratmağa
Tükənməyən həvəsim
— Sarı sim.
Səndəndir vətənimə,
Xalqıma məhəbbətim.
Andıma sədaqətim.
Gücsüzə mərhəmətim
Körpələrə şəfqətim.
Zərifliyim,
İçimdə çağlajan səsim -
Sarı sim.

Çalmasan, çağlamasan,
Bəlkə mən də
Ya bir bağrı daş olardım,
Ya da zalım, qaniçən.
Yaxşı ki, sən mənim bu köksümdəsən.
Fəqət bir diləyim var:
Şəhidlər xiyabanında demirəm,
Mübarizə yollarında gərək sən.
Məni kövrəltməyəsən!

Əjdər Fərzəli

Azərbaycan gəncləri. – 1991. – 22 yanvar.